***XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ***
***METHODS OF TEACHING FOREIGN LANGUAGES***

*372.8:811.111.*

***Günay Dilqəm qızı Alıyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Xarici Dillər Mərkəzinin baş müəllimi*
*https://orcid.org/0000-0001-5780-039X*
https://doi.org/10.69682/azrt.2024.91(1).163-167

## İNGİLİS DİLİNDƏ SADƏ CÜMLƏ MODELLƏRİNİN TƏDRİSİ TEXNOLOGİYASI

***Гюнай Дильгам гызы Алиева***
*старший преподаватель Центра иностранных языков*
*Азербайджанского Государственного Педагогического Университета*

## ТЕХНОЛОГИЯ ОБУЧЕНИЯ ПРОСТЫМ МОДЕЛЯМ ПРЕДЛОЖЕНИЙ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

***Gunay Dilgam Aliyeva***
*senior teacher of the Foreign Languages Center of the*
*Azerbaijan State Pedagogical University*

## TECHNOLOGY FOR TEACHING SIMPLE SENTENCE PATTERNS IN ENGLISH

**Xülasə.** Məqalədə ingilis dilində sadə cümlələrin müxtəlif modellərindən, hələ məktəb təhsilindən başlayaraq öyrənənlərin dil bacarıqlarının formalaşdırılmasında sadə cümlələrin rolu və əhəmiyyətindən, dil biliklərinin inkişaf etdirilməsi modelləri və fikirlərini sərbəst ifadə edə bilmək, rahat danışmaq üçün istifadə ediləcək texnikalardan, üsullardan danışılır. Müəllif rollu oyunlar, həyat hekayələri, cümlə yaratmaq, şəkilli dəstəklər və s. üsullardan istifadə edərək sadə cümlə qurmaq vərdişlərini yaratmağın ingilis dilində sadə cümlələrin öyrədilməsi və dil bacarıqlarının təkmilləşdirilməsində rolunu faydalı hesab edir. Müəllif məqalədə həmçinin araşdırmaya istinad edərək ingilis dilində sadə cümlələrin Azərbaycan dilinə tərcüməsi yollarından bəhs edir, bu prosedurun öyrənənlərdə dil bacarıqlarının formalaşdırılmasındakı rolunu yüksək qiymətləndirir.
***Açar sözlər:*** *sadə cümlələr, dil bacarıqları, təktərkibli cümlələr, cüttərkibli cümlələr, cümlənin kommunikativ tipləri*

**Резюме.** В статье речь идет о различных моделях простых предложений в английском языке. Анализируется роль и значение простых предложений в формировании языковых навыков учащихся, начиная со школьного образования, повествуется о моделях развития языковых знаний, а также о приемах и методах, которые следует использовать для свободного выражения мыслей в разговорной речи. Автор считает использование ролевых игр, жизненных историй, составление предложений с опорой на картинки и т. д. полезными при формировании умений составлять простые предложения на английском языке и совершенствовании языковых навыков. В статье автор, также опираясь на исследования, повествует о способах перевода простых предложений с английского на азербайджанский язык, а также оценивает роль этой процедуры в формировании языковых навыков у обучающихся.
***Ключевые слова:*** *простые предложения, языковые навыки, односоставные предложения, двусоставные предложения, коммуникативные типы предложений*

**Summary.** The article talks about different models of simple sentences in English, the role and importance of simple sentences in the formation of language skills of learners starting from school education, models of developing language knowledge and techniques and methods to be used to express ideas freely

and speak comfortably. Author role-playing games, life stories, creating sentences, picture supports, etc. considers the role of forming the habit of forming simple sentences using methods useful in teaching simple sentences in English and improving language skills. In the article, the author also refers to the research and talks about the ways of translating simple sentences in English into Azerbaijani, and appreciates the role of this procedure in the formation of language skills in learners.

***Key words:*** *simple sentences, language skills, simple sentences, double sentences, sentences, communicative types of sentences*

İngilis dilində sadə cümlələr bir mövzu olaraq qrammatikanın bir hissəsidir və ingilis dilində sadə cümlələrin öyrədilməsi hələ məktəbəqədər dövrdən başlayır.

Uşaqlar ətraf mühitlə tanış olduqca əşyaları adlandırır, onların fəaliyyətlərini, hərəkətlərini qavrayır, nitqlərində çox bəsit və sadə cümlələr ifadə edirlər. Məktəb illərinin ilk səviyyələrində bu bilik və bacarıqlar vərdişə çevrilir, artıq səviyyələr üzrə öyrənələrdə dil bacarıqlarının formalaşdırılması prosesləri müəllimin nəzarəti və rəhbərliyi ilə davam etdirilir. İngilis dilini anlamaqda və dil vərdişlərinə yiyələnməkdə sadə cümlələrin qurulması və yazılması böyük rol oynayır və prosedur ilk siniflərdən başlayaraq tətbiq edilir. Müəllim hələ yazmaq cəhdlərindən əvvəl şəkillər və əşyalar üzərində sadə cümlə qurmaq bacarıqları ilə bağlı təməl imkanlar yaradır. Onlar əvvəlcə əşyalar, şəkillər üzərində ucadan oxumağı öyrənir, sonra isə yazmağa cəhd edirlər. Bu zaman onlar cəmi 1 müstəqil fikir yürüdür, düşündüklərini cəmi 1 misralıq sadə cümlə şəklində qısa, lakonik ucadan söyləyir, sonra isə yazırlar.

İngilis dilində sadə cümlənin öyrədilməsi mövcud kurikulumlara müvafiq olaraq 1 və 2-ci siniflərdən başlayıb ali təhsilə qədər davam etdirilir. Bütün pillə və səviyyələrdə sadə cümlənin öyrədilməsi proseduru əvvəlcə sadə cümləni ucadan söyləmək, sonra isə yazmaq mərhələsindən keçir. Ucadan söyləmək sadə cümlənin tipini – əmr, sual, nəqli, nida cümləsi olduğunu müəyyənləşdirməyə kömək edir və yazı qaydalarına uyğun olaraq cümlənin sonunda qoyulacaq durğu işarəsinin müəyyənləşməsində əhəmiyyətli rol oynayır. Göründüyü kimi adı sadə cümlə olsa da, diqqət tələb edən cümlə formasıdır. Həmçinin sadə cümlələr qurmağı öyrənənlər eyni zamanda çünki, baxmayaraq və digər köməkçi vasitələrdən də istifadə edərək ingilis dilində sadə cümlələri formalaşdırmaq bacarıqlarına yiyələnirlər. Bu zaman müəllimlər sadə cümləni öyrətmək metodikasından və bol resurslardan istifadə edərək öyrənənlərin sadə cümlə qurmaq bacarıqlarını təkmilləşdirə bilərlər.

Bilirik ki, sadə cümlə dünya dillərində olduğu kimi, ingilis dilində də bir və ya bir neçə sözdən ibarət qrammatik vahiddir. Bu cümlə tələffüz edilərkən emosiyaları ifadə edir. Yazılarkən isə hər cümlə sətrin əvvəlində böyük hərflə başlayır və sonunda ya nöqtə, ya da durğu işarəsi ilə bitir. İngilis dilində sadə cümlə tək müstəqil bir fikirdən ibarət olan bir cümlədir. Sadə bir cümlədə yalnız bir mövzu var və çox vaxt bu yalnız bir feldən ibarət olur: aldım, getdi, gecikdin, oxuduq, oynadılar və s. Başqa sözlə, sadə bir cümlə bizim yarada biləcəyimiz ən əsas cümlədir: "Bir sözlə, konkret dildən asılı olmayaraq cümlə: 1. müəyyən bir fikir ifadə etməlidir; 2. müəyyən sintaktik quruluşa malik olmalıdır; 3. müəyyən intonasiyaya malik olmalıdır [4, s.225].İngilis dilində bir neçə sadə cümləyə baxsaq, onların nəyə bənzədiyini və onları necə müəyyən edə biləcəyimizi öyrənə bilərik:

Hyu mağazalara getdi. Hugh went to the shops.

Terri avtobusa gecikdi. Terry was late for the bus.

Maşın qırmızı işıqda keçdi. The car ran a red light.

Mən yeni kompüter aldım. I bought a new computer.

Kinoya getdik. We went to the cinema.

Marta yeni bir it aldı. Martha got a new dog.

Avtobus gecikmişdi. The bus was late.

Futbol oynadıq. We played football.

Tez-tez kitab oxuyur. He often reads books.

Parka tərəf getdilər. They went to the park.

Bu sadə cümlə nümunələrindən də görünür ki, hər cümlədə yalnız bir yetkin fikir ifadə olunub. Həm də hər bir cümlədə bir müstəqil fikir var. Bəs cümlədə neçə söz olmalıdır? İngilis dilində əsasən sadə cümlədə söz sayı 1-5 arası ola bilər. Amma bu say dəyişə bilər.

Məsələn:

Moris üzdü. Maurice swam.

Mən yedim. I ate.

Bu sadə cümlə nümunələri gördüyümüz kimi cəmi iki sözdən ibarətdir. Onlar təktərkibli və ya cüttərkibli ola bilər. A.A. Şaxmatov qeyd edirdi ki, təktərkibli cümlənin əsas hissəsi ya mübtəda olmalıdır, ya da xəbər [5, s.129]. Buna baxmayaraq bu tip cümlələr yenə də sadə cümlələr hesab edilir və onların həm mövzusu aydındır, həm də predikatı (və ya feli). İngilis dilində bu kimi daha uzun sadə cümlələr də yaza bilərik:

Klara pianoda ifa etməyi öz-özünə öyrəndi. (Clara taught herself to play the piano.)

Marta dostları ilə bağda oynayır. (Marta is playing in the garden with her friends.)

İngilis dilində sadə cümlələr haqqında düşünəndə onların çox sadə olması lazım olduğunu təsəvvür edə bilərik. Çünki ingilis dili lakonikliyi, yığcamlığı sevir. Bununla belə, uzun cümlələr də ola bilər ki, yenə də onlar sadə cümlələr olsun. İngilis dilində sadə cümlələrin tədrisi texnologiyaları Twinkl-ın öyrənmə resursları ilə şagirdlərə dəstək ola bilər. Sadə cümlələri təqdim etmək və şagirdlərə bəzi sadə cümlə nümunələri göstərmək üçün bu resurs faydalıdır. Bu resurs öyrənənlərə öz cümlələrini yazmağa başlamağa kömək edəcək əyləncəli məşqlər və sadə cümlə nümunələri ilə doludur və şagirdlər üçün xoş təcrübə deməkdir. Amma qeyd etmək lazımdır ki, hər bir istifadə edilən texnologiya kurikuluma uyğun tətbiq edilməlidir.

Müəllimlər ingilis dilində sadə cümlələrin öyrənilməsi və cümlə quraraq yazmaq bacarıqlarının təkmilləşdirilməsi üçün bir neçə texnologiya da təklif edirlər:

– Şəkilli cümlələr: Bu şagirdlərə ingilis dilində sadə cümlələr qurmaq və öz cümlələrini yazmağa kömək etmək üçün faydalı məlumatlar və illüstrasiyalarla zəngindir və təsviri cümlələr üçün əlverişlidir.

– Sadə Cümlələr İş Vərəqi Paketinin yaradılması: Bu gözəl resurs paketi şagirdləri öz sadə cümlələrini yazmağa təşviq edən bir sıra iş vərəqlərindən ibarətdir. Hər birində bir şəkil, uşaqların işə başlaması üçün bəzi sözlər və altında çoxlu yazı sahəsi olan iş vərəqləri motivasiyaedicidir.

İngilis dilində sadə cümlələrin tədrisi üçün bir neçə effektiv metodika da təklif etmək olar. Bu metodikalardan bəzilərini nəzərdən keçirək:

Subjekt və Feilin Tədrisi: Bu zaman öyrənənlərə əşyaları göstərmək və ingilis dilində sadə cümlələr qurmaq tələb olunur. Proses sinifdə aparılır və obyektləri göstərərək adlarını təkrarlamaq, bu yolla sadə cümlələr təşkil etmək yolları öyrədilir. Məsələn, "This is a cat" və ya "I am a student" kimi cümlələr.

Fiziki əməlləri tədris etmək: Hər bir tələbəyə öz əməllərini ifadə etməsi üçün imkan verilir. "I run fast" və ya "She jumps high" kimi cümlələrlə öz əməllərini ifadə etməyə nail ola bilirlər.

Cümlə Strukturasını Tədris Etmək: Subject + Verb: Tələbələrə sadə cümlə strukturasını öyrətmək üçün mövcud əməlləri və obyektləri istifadə etmək tapşırığı verilir. Məsələn, "The cat sleeps" və ya "I eat an apple" kimi cümlələr qurmaq məqsədəuyğundur.

Sual cümlələri: Tələbələrə sual verərək və onlardan cavab almağa nail olmaqla sual cümlələri yaratmaq öyrədilir. Məsələn, "Do you like chocolate?" və ya "Is it sunny today?" kimi suallardan istifadə etmək olar.

Əmrləri Tədris Etmək: Əmr cümlələri ilə tələbələrin əməllərini təyin etmək: "Close the door," "Study for the exam," kimi əmr cümlələri ilə tələbələrdən müəyyən əməlləri yerinə yetirmələrini tələb etməklə əmr cümlələrini anlamağa kömək etmək faydalıdır.

Həyat Təcrübələrini Əlavə Etmək: Bu rutin və gündəlik fəaliyyətlərlə bağlı üsuldur. Bu üsulun tətbiqi zamanı tələbələrə öz günlük həyatlarında hansı cümlələri istifadə etdikləri haqqında danışmağa nail olaraq onların təcrübələrini cümləşdirməyə kömək etmək tələb edir. Bu zaman, məsələn, "I wake up early," "We eat lunch at noon" kimi cümlələrdən istifadə etmək olar.

Bu metodikalar tələbələrə ingilis dilində sadə cümlələr qurmaq, yazmaqla dil biliklərini və bacarıqlarını inkişaf etdirmək və onların özünü rahat ifadə etmələrinə kömək etmək üçün faydalıdır. Əsas məqsəd tələbələrə ingilis dilində sadə cümlə qurmaqla dil qaydalarını praktik şəkildə və həyat təcrübələri ilə birləşdirərək öyrənməyi öyrətməkdir.

İngilis dilində saəd cümlənin müxtəlif modelləri məlumdur. İ.P.İvanova qədim ingilis dilində sadə cümlənin üç modelinin olduğunu qeyd etmişdir: SP modeli, SPO və SPC modeli. Qeyd etmək lazımdır ki, sadə cümlənin ancaq cüttərkibli cümlə növü bu modellərə malik ola

bilər. Bu modellərin hər birinin yaranmasında cümlənin baş üzvləri olan mübtəda (S) və xəbər (P) iştirak edir [3, s.244]. Qədim ingilis dilində sadə cüttərkibli cümlənin hər bir modelinin də bir neçə variantları mövcud olmuşdur. Bu sadə cümlə modellərindən yalnız biri (yəni, SP modeli) müxtəsər, digərləri (yəni, SPO, SPC) isə geniş cüttərkibli cümlələrdir.

Cümlə ünsiyyətin bir parçasıdır olduğundan onun təsnifatı ilk növbədə kommunikativ prinsipə əsaslanır. İngilis dilində sadə cümlənin bu prinsip nəzərə alınaraq təsnif olunmasını qrammatikada cümlənin “ünsiyyətin məqsədinə görə” (purpose of communication) təsnifatı adlandırır və ənənəvi olaraq qeyd edilən qruplara aid edirlər:

1. Nəqli cümlə (The Declarative Sentence);
2. Sual cümləsi (The İnterrogative Sentence);
3. Əmr cümləsi (The İmperative Sentence).

Nida cümləsinin bu təsnifatda yer alıb-almaması bir qədər mübahisəli olsa da, tanınmış amerikalı dilçi G.O.Kerm bu cümlə növünü xüsusi vurğulamış və onu ən qədim cümlə tipi adlandırmışdı. [2, s.96].

Müasir ingilis dili sadə cümlələri öz tərkibinə görə təktərkibli (one member sentence) və cüttərkibli (Two member sentence) olur. Belə cümlələrdə baş üzvlərdən biri olmur və onu nə mətndən, nə də mövcud cümlənin quruluşuna görə bərpa etmək olmur. Cümlə üzvlərinin ifadə imkanlarına görə sadə cümlələrbütöv və yarımçıq olur. Bütöv cümlələrdə baş üzvlərin hər ikisi iştirak edir. Bunlar sadə müxtəsər cümlə adlanır. Baş üzvlərlə yanaşı ikinci dərəcəli üzvlərin iştirak etdiyi cümlələr isə bütöv geniş cümlələr hesab edilir. Bu cümlələri tədris etmək üçün bir sıra texnologiyalar mövcuddur. Araşdırma ingilis dilində sadə cümlələrin tədrisi texnologiyası ilə bağlı bəzi interaktiv metod nümunələrini də nəzərdən keçirmişdir: Rollu və Dramatik oyunlar, Cümlə Yaratma Oyunları, Şəkilli Dəstəklər, Online Dil Təlim Platformaları, Qrup Tədrisi və Müzakirə Sessiyaları kimi interaktiv metodlar tələbələrin dil bacarıqlarını inkişaf etdirmək və sadə cümlələri rahat şəkildə qurmağa kömək etmək üçün müstəsna üsullardır.

Araşdırma ingilis dilində sadə cümlənin tədrisi texnologiyası ilə bağlı bir dərs modelini də öyrənənlərin dil bacarıqlarının və sadə cümlə qurmaq vərdişələrinin formalaşdırılmasının bir nümunəsi kimi təqdim edir.

**Dərs Başlığı:** İngilis dilində sadə cümlələr

**Hədəf:**

Tələbələrə sadə cümlələrin strukturasını və əsas elementlərini öyrətmək.

Tələbələrin öz cümlələrini yaratmaq və ifadə etmək üçün özünü rahat ifadə etməyə nail olmağını təmin etmək.

**Dərsin gedişi:**

Qarşılıqlı Tanışlıq (10 dəqiqə):

Qrup içindəki tələbələr bir-birilə tanış olur və adları, yaşları və maraqları barədə qısa məlumat paylaşırlar.(qısa diloqlar da qurmaq olar )

Sadə Cümlənin Tərifinə Giriş (15 dəqiqə):

Qrupa sadə cümlənin tərifini təqdim etmək: “Sadə cümlə, tək bir əsas fikri ifadə edən və tərkibində bir subjekt və bir feil olan cümlədir.”

Sadə Cümlənin Əsas Tərkib Hissələri (20 dəqiqə):

Subjekt və feilin hansı funksiyada olduğunu izah etmək.

Qrup üzvlərini müxtəlif nümunələrlə təmin edin və onlara hər birində subjekt və feilin hansı elementlərdə olduğunu tapmağını təklif etmək.

Qrup Tədrisi və Təlimatlar (15 dəqiqə):

Qrupu iki altqrupa bölərək hər birinə bir mövzu təyin etmək. (Məsələn, bir qrup “Həyat Təcrübələri” və digəri “Gündəlik Fəaliyyətlər” mövzularında çalışa bilər.)

Hər qrupa sadə cümlələr təşkil etmələri üçün təlimatlar vermək.

Altqrup İşləri və Təqdimatlar (25 dəqiqə):

Qrup üzvlərindən təşkil etdikləri cümlələri müzakirə etmələrini və digər qrup üzvlərinə təqdim etmələrini təklif etmək.

Qrup təqdimatlarını dəyərləndirmək üçün öyrəncilərə bir-birilə suallar vermək və müzakirə etmək üçün vaxt vermək.

**Ev tapşırığı:** Əsas Qaydaların Təkrarı və sadə cümlələrdən mətn yazmaq təlimatı (10 dəqiqə): Sadə cümlələrin əsas qaydalarını qısa bir şəkildə təkrarlamaq və tələbələrə evdə təkrar məsələləri üçün bir sıra tapşırıqlar təqdim etmək.

Bu dərs nümunəsi ingilis dilində sadə cümlə modellərinin tədrisi texnologiyası ilə bağlı tələbələrə sadə cümlələrin strukturunu öyrətmək və təcrübə qazandırmağa nail olmağa kömək edəcəkdir.

**Problemin aktuallığı.** Son illərdə ingilis dilinə böyük maraq yaranıb və XXI əsr insanına məxsus kompetensiyalar sırasında xarici dillərdə ünsiyyət səriştəsi böyük əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki,

sürətlə artan yeni texnologiyalar və innovasiyalar da xüsusən ingilis dilində sadə qrammatik qaydaları və ingilis dilində ünsiyyəti zəruri tələbata çevirib, onda problemin aktuallığı göz önündədir. Sadə cümlə qurmaq bacarıqlarının formalaşdırılması isə bu prosesin vacib elementidir. Ümumtəhsil məktəbi şagirdlərinin, həmçinin tələbələrin də sadə cümlə qurmaq bacarıqlarını formalaşdırmaq, kontekstə uyğun sadə cümlə qurmaq və intonasiyanın semantik mahiyyətini dərk etmək imkanları yaratmaq problemini həll etmək mövzunun aktuallığını əsaslandırır.

**Problemin yeniliyi.** İngilis dilində sadə cümlə modellərinin tədrisə tətbiqinin müasir texnologiyaların tətbiqi ilə reallaşdırılması və bu metodların real dünya prosesləri ilə əlaqəli tədrisi problemin yeniliyidir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri auditoriyalarda ingilis dilində sadə cümlələrin yeni modellərinin formalaşdırılmasına və ingilis dilinin qrammatikasının öyrədilməsi prosesində həm sintaksis, həm də fonetika bəhsində paralel olaraq sadə cümlə qurmaq, onu tələffüz etmək, intonasiyasına diqqət etmək və sadə cümlənin növləri və sonunda qeyd edilən durğu işarələri ilə bağlı təcrübələrin yayılmasına və tətbiqinə kömək edəcəkdir.

**Ədəbiyyat:**


1. Fitrita Z, Mila. 2016. Koqnitiv Öyrənmə Strategiyasının və Yazıya Maraqın Tələbələrə Təsiri. SMPN 1 Sintuk Toboh Gadang Padang Pariaman-da Yazı Bacarığı. tezis. Dövlət Magistratura Proqramı. Padanq Universiteti.
2. Curme, G.O. Sintaksis. / G.O. Curme. – Boston – Nyu-York: DC Heath, – 1931. – 308 səh.
3. İvanova İ.P. Daha yüksək məktəb. – M., 1976. – 264 s.
4. Mahmudov, M.Ə. Mətnin formal təhlil sistemi. / M.Ə. Mahmudov. – Bakı: Elm, – 2002. – 242 s.
5. Шахматов, А.А. Синтаксис русского языка. / А.А. Шахматов. – Ленинград: Наука, – 1971. – 427 с.
6. Veysəlli, F.Y. Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. / F.Y. Veysəlli, Q.Ş. Kazımov, İ.B. Kazımov [və b.]. – Bakı: Prestij çap evi, –c.III. 2014. –505 s.


**E-mail:** aliyevagunay79@yahoo.com

**Rəyçilər:** *filol.ü.fəls. dok., dos.* **Ü.D. Hacıyeva,**
*filol.ü.fəls. dok.* **M. M. Qasımova**
**Redaksiyaya daxil olub:** 22.01.2024.